# ZÜLFÜQAROV SAMİR XƏLİL OĞLU



3 iyul 1976-cı ildə Şabran (keçmiş Dəvəçi) rayonunun Ağbaş kəndində anadan olmuşdur. Səkkizillik təhsilini doğma kəndlərində almış, 1994-cü ildə Milli Ordu sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. O, Yaşma qəsəbəsində yerləşən hərbi hissələrdən birində xidmətini edirdi. Bir qrup silahlı dəstə hakimiyyəti ələ keçirmək üçün dövlət çevrilişi etmək istədiyi zaman məzuniyyətdə olan Samir döyüş yoldaşlarının yanına qayıtmış, dövlət çevrilişinə cəhd edən qüvvələrin zərərsizləşdirilməsində iştirak etmişdir. 1995-ci il martın 17-də S.Zülfüqarov qiyamçı dəstələrlə yaranan qarşıdurma zamanı qəhrəmancasına həlak olmuşdur. Şabran rayonunun Ağbaş kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə sıravi Zülfüqarov Samir Xəlil oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Şabran rayon 3 saylı orta məktəbi Milli Qəhrəmanın adını daşıyır və məktəbdə büstü qoyulmuşdur.